DÜNYA

# Ukrayna müharibəsində azı 200 nəfər 18 yaşlı Rusiya hərbçisi həlak olub

indicə




Hərbi məzarlıqlar

Ukraynada genişmiqyaslı müharibə başlayandan bəri Rusiya ordusunun azı 226 min 55 hərbçisinin həlak olduğu təsdiqlənib. Onların arasında azı 200 nəfər 18 yaşlı gənc var. Həlak olanların şəxsiyyətini BBC-nin rus xidməti, "Mediazona" nəşri və könüllülər qrupu açıq mənbələr əsasında müəyyənləşdirib.

2026-cı il mayın 1-də cəbhədə həlak olan 18 yaşlı **Alişer Svirin** 2008-ci il təvəllüdlü ilk itki kimi qeydə alınıb. Rusiyanın Ukraynaya genişmiqyaslı hücumu başlayanda onun cəmi 14 yaşı var idi. Svirinin cəbhəyə dəqiq nə vaxt göndərildiyi məlum olmasa da, jurnalistlər onun yaşını nəzərə alaraq döyüş bölgəsində maksimum üç ay qaldığını ehtimal edirlər. O, mayın 28-də Pavlovski Posad şəhərində dəfn olunub.

## İki həftəlik təlimdən sonra cəbhəyə göndərilirlər

Təsdiqlənmiş ümumi itkilər arasında ən böyük pay təxminən 83 min nəfərlə könüllülərin üzərinə düşür. Statusu müəyyən edilə bilməyən həlak olanların sayı 49 min, müqaviləli hərbçilər 46 min, məhkumlar 25.5 min, səfərbər olunanlar isə 19 min nəfər təşkil edir. Könüllülər arasında ölüm faizinin yüksək olması onların cəmi ikihəftəlik qısa hazırlıq keçməsi, bəzilərinin isə müqavilə imzaladıqdan cəmi bir neçə gün sonra birbaşa ön xəttə göndərilməsi ilə izah olunur.

Böyük Britaniyanın Hökumət Rabitə Mərkəzinin (GCHQ) rəhbəri Enn Kist-Batler daha əvvəl bildirmişdi ki, Rusiyanın Ukraynadakı ümumi itkiləri (ölən və yaralananlar) 500 min nəfərə yaxınlaşır. BBC isə qeyd edir ki, açıq mənbələrlə qeydə alınan rəqəmlər real itkilərin yalnız 45–65 faizini əhatə edir. Bu tənasüb nəzərə alındıqda, təkcə həlak olan Rusiya hərbçilərinin sayının yuxarı həddi 497 min nəfərə çata bilər.


## Buna da bax:

Rusiya vətəndaşlığı əvəzinə deportasiya – 'Vaqner' döyüşçüsü Azərbaycanda 5 il həbs aldı

Aİ Rusiyaya qarşı yeni sanksiyalar hazırlayır – siyahıda Patriarx Kirill və Vahid Ələkbərov da var

Rusiyada yaralı əsgərləri yenidən cəbhəyə göndərirlər: 'Çıxış yolu yoxdur'


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur